*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 160-164*

https://doi.org/10.62837/2026.1.160

**SURA TARIYEL QIZI PƏNAHLI.**
**ATU,Xarici diller kafedrasi,**
**baş müəllim,**
**Filologiya üzrə fəlsəfə doktoru**
**spenahli@amu.edu.az**
**ORCHID: https://orcid.org/0009-0005-2270-9584**

# DİL. MƏDƏNİYYƏT. İNSAN. ETNOS

**Açar sözlər:** *insan cəmiyyəti, beynin fəaliyyəti, fəaliyyətin məhsulu, ruh və materiya, antroposentrik paradiqm, insanın şüuru, elmi səviyyə, dəyər iyerarxiyası, dil və mədəniyyət, inkişaf edən obyekt.*

**Ключевые слова:** *человеческое общество, деятельность мозга, продукт деятельности, дух и материя, антропоцентрическая парадигма, сознание человека, научный уровень, иерархия ценностей, язык и культура, развивающийся объект.*

**Key words:** *human society, brain activity, product of activity, spirit and matter, anthropocentric paradigm, human consciousness, scientific level, value hierarchy, language and culture, developing object.*

**Giriş.** Dilçilikdə paradiqmlərin dəyişkənliyi problemi xüsusi əhəmiyyətə malikdir. Dilin antropoloji baxımdan tədqiqi müasir dövrdə bütün alimlər tərəfindən qəbul olunmuşdur. Bu elmi paradiqm dilçilikdə yeni problemlərin, dil vahidlərinin təhlilində yeni yanaşmaların, yeni təsvir metodlarının yaranmasına səbəb olmuşdur. Ənənəvi olaraq üç paradiqm məqbul hesab edilir: tarixi-müqayisəli paradiqm, sistem-struktur paradiqm və antropoloji paradiqm [5, s. 21-30].

Tarixi-müqayisəli paradiqm dilçilikdə ilk elmi paradiqm hesab olunur, çünki tarixi-müqayisəli metod dilin ilk tədqiqat üsulu hesab edilir. Bütün XIX əsr ərzində bu tədqiqat metodu üstünlük təşkil etmişdir. Sistem-struktur paradiqmi predmetə, əşyaya münasibətlə səciyyələnir. Bu zaman diqqət mərkəzində hər hansı predmet, əşya, ad və onları ifadə edən söz dayanır [4, s. 102-106].

**Əsas hissə.** III minilliyin əvvəlində, XXI əsrdə də sistem-struktur paradiqmi çərçivəsində aparılan tədqiqatlar üstünlük təşkil edir. Bu paradiqm çərçivəsində dərsliklər, akademik qrammatikalar, monoqrafiyalar yazılır. Bu paradiqm əsasında yaranan fundamental tədqiqatlara yalnız müasir tədqiqatçıların deyil, dilçilərin gələcək nəsillərinin də böyük ehtiyacı olacaqdır [1, s. 23-25].

**Antroposentrik paradiqm.** Bu paradiqm çərçivəsində tədqiqatçının maraq dairəsi obyektdən subyektə doğru istiqamətdə inkişaf edir, dildə insan və insanda dil problemləri araşdırılır. İ.A.Boduen de Kurtene yazır: "Dil fərdi insan beyinlərində,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2026
Səh. 160-164

dil cəmiyyətini təşkil edən insanların, ayrı-ayrı fərdlərin psixikasında mövcuddur". Müasir dövrdə aparılan tədqiqatlarda dilin antoposentrikliyi ideyası xüsusi yer tutur [6, s. 31-36].

Müasir dövrümüzdə linqvistik təhlilin məqsədi yalnız dil sisteminin fərqli baxımdan səciyyələndirilməsi ola bilməz. Dil-mürəkkəb hadisədir. E.Benvenist yazırdı: "Dilin xüsusiyyətləri olduqca çoxdur və yalnız ona məxsusdur. Bu baxımdan dilin yalnız bir yox, bir neçə strukturu haqda danışmaq olar və bu strukturların hər biri bütöv bir linqvistik sistem təşkil etməyə qadirdir".

Dil – insan cəmiyyətində mövcud olan çoxölçülü hadisədir: o həm sistem, həm də antisistem fəaliyyət və bu fəaliyyətin məhsulu, ruh və materiya kortəbii inkişaf edən obyekt və öz-özünü qanunla tənzimləyən hadisə hesab oluna bilər. Dilin mahiyyəti onun mürəkkəbliyi və fərqli cəhətdən mövcudluğu ilə səciyyələnir.

Y.S.Stepanov dilin mürəkkəb mahiyyətini izah edərkən, onu fərqli obrazlar vasitəsilə təqdim edir:

1) Dil – hər bir fərdin dilidir;
2) Dil – dillər ailəsinin bir üzvüdür;
3) Dil – strukturdur;
4) Dil – sistemdir;
5) Dil – tip və xarakterdir;
6) Dil – kompyuterdir;
7) Dil – fikrin fəzası və zühur evidir, dil insanın mürəkkəb koqnitiv fəaliyyətinin məhsuludur [7, s. 130-135].

Beləliklə, dil – xalqın fəaliyyətinin nəticəsidir. Dil dövlət və dil normalarını formalaşdıran institutlar tərəfindən müəyyən çərçivədə təqdim olunur. XX əsrin sonlarında məlum oldu ki, dil – mədəniyyətin məhsuludur. Antroposentrik paradiqm nöqteyi-nəzərindən insan dünyanı öz daxili aləmi öz nəzəri və əməli fəaliyyəti vasitəsilə dərk edir. Heç bir nəzəriyyə izah edə bilməz ki, nə üçün "məhəbbət alovu", "ürək yanğısı", "dost hərarəti" kimi ifadələri dilimizdə nə səbəbdən işlədirik.

İnsanların şüurunda mövcud olan qanunlar, onların mənəvi mahiyyətini, dəyər iyerarxiyasını və davranış motivlərini müəyyənləşdirir. İ.L.Veysberqerin fikrincə, ətraf aləm faktların məcmusudur [8, s. 21-23].

Beləliklə, dil faktlara və hadisələrə əsaslanmağa başladı, diqqət mərkəzində isə dil daşıyıcısının şəxsiyyəti yer tutdu. Yeni paradiqm tamamilə yeni məqsəd və vəzifələri, yeni açar anlayışları və metodikaları qarşıya qoydu. Antroposentrik paradiqm linqvistik tədqiqatların predmetini dəyişdi, araşdırmaların ümumi prinsiplərinin və metodlarının seçilməsinə və yeni yanaşma nümayiş etdirdi [6, s. 40-42].

Antroposentrik nəzəriyyədə dildə şəxsiyyətin ünsiyyəti çoxaspektlidir; fəaliyyətinin taktika və strategiyasına, kommunikantların sosial və psixoloji rollarına uyğundur, kommunikasiya vasitəsilə çatdırılan informasiyanın mədəni mahiyyətini

ifadə edir. Antroposentrik nəzəriyyə vasitəsilə insan ətraf aləmi qavrayır. Beləliklə, antroposentrik paradiqm insan və onun şəxsiyyətini ön plana çəkir, dil insanın səciyyəvi xüsusiyyəti kimi qəbul olunur. İnsan intellekti dil və dil fəaliyyətindən, dil bacarığından kənarda mövcud ola bilməz. Əgər dil bütün təfəkkür proseslərinə müdaxilə etməsəydi, yeni mental fəzalar yarada bilməsəydi insan həyatı nə dərk edə, nə də nitqə qadir ola bilərdi [5, s. 28-32].

İnsan tərəfindən yaradılmış mətn təfəkkürün dinamikasını əks etdirir. Müasir dilçilikdə antropoloji paradiqm çərçivəsində formalaşan əsas istiqamətlər: koqnitiv linqvistika və linqvokulturologiyadır. Dil sıx surətdə mədəniyyətlə əlaqədardır. Dil mədəniyyətdə inkişaf edir və onu ifadə edir. Bu ideyanın əsasında yeni elm – linqvokulturologiya yaranmışdır. Bu dilçilikdə tamamilə yeni istiqamət hesab edilir. Linqvokulturologiya rus dilçiliyində V.N.Teliyanın, Y.S.Stepanovun, A.D.Arutyunovanın, V.V.Vorobyovun, V.Sakleinin, V.A.Maslovanın və digər tədqiqatçılarını əsərlərində öz əksini tapmışdır. Dil öz vahidlərində mədəniyyəti qoruyur və əks etdirir. Linqvokulturologiya – linqvistika və kulturologiyanın qovşağında yaranmışdır, xalqın mədəniyyətini dil vasitəsilə ifadə edir. Linqvokulturologiya etnolinqvistika və sosiolinqvistika ilə sıx surətdə bağlıdır [4, s. 21-25]. Etnolinqvistik istiqamət Avropada V.Humboldtun, Amerikada isə F.Boasın, E.Sepirin, B.Uorfun adları ilə bağlıdır [11, s. 20-22]. Rusiyada bu sahədə D.K.Zeleninin, E.K.Karskinin, A.A.Şaxmatovun, A.A.Potebnyanın, A.N.Afanasyevin, A.İ.Sobolevskinin.əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Etnolinqvistika – dil və mədəniyyətin, cəmiyyətin sosial strukturu, xalqın tarixi və ənənələri ilə, millətin xüsusiyyətləri ilə sıx əlaqədardır. Etnos – insanların dil və ənənəvi-mədəni toplusudur, cəmiyyətin tarixini, mənşəyini, dilini, mədəniyyət və psixologiyasını bir vəhdət şəklində təcəssüm etdirir [8, s. 30-35].

**Nəticə.** Bəşər mədəniyyəti etnik mədəniyyətlərin məcmusunu təşkil edir. Mədəniyyət – ictimai-sosial təfəkkürün fundamental anlayışlarından biridir. Bu söz elmi termin kimi XVIII əsrin II yarısından sonra işlənilməyə başlamışdır.

Elmi əməliyyatda mədəniyyət terminini ilk dəfə E.Teylor işlətmişdir. E.Teylor mədəniyyəti biliklərin, inancların, incəsənətin, əxlaqın, adət və ənənələrin, qanunların məcmusu kimi qəbul edirdi.

Müasir dövrdə mədəniyyət anlayışına yanaşma fərqlidir. Alimlər mədəniyyət anlayışını aşağıdakı yanaşmalarla tədqiq edirlər: təsviri, dəyər, fəaliyyət, funksional, hermenevtik, normativ, mənəvi, dialoji, informasion, simvolik, tipoloji və s.

Beləliklə, mədəniyyət və insan anlayışları bir-biri ilə əlaqəli şəkildə təqdim olunur. İnsan mədəniyyətin yaradıcısı və onun əsas məhsulu hesab olunur

## İstifadə olunmuş ədəbiyyat

1. Абаев В.И. Язык и мышление. – Москва. – 1948.
2. Арнольдов А.М. Введение в культурологию. – Москва. – 1994.

3. Бахтин М.М. Эстетика словесного творчества. – Москва. – 1979.
4. Буркхарт Ф. Язык, социальное поведение и культура. // Образ мира в слове и ритуале. – Москва. – 1992.
5. Вежбицкая А. Язык. Культура. Познание.
6. Кубрякова Е.С., Александрова О.В. О контурах новой парадигмы знания в лингвистике. // Структура и семантика художественного текста. – Москва, 1994.
7. Степанов Ю.С. О трехмерном пространстве языка: Семиотические проблемы лингвистики, философии, искусства. – Москва. – 1985.
8. Вейсбергер И.Л. Язык и философия. // Вопросы языкознания. – 1993. №2.
9. Воробьев В.В. Культурологическая парадигма русского языка. – Москва. – 1994.
10. Выготский Л.С. Мышление и речь. // Собр. соч. в 6 т. – Москва. – 1982. Том. 2.
11. Гумбольдт В. Язык и философия культура. – Москва. – 1984.

**Sura Tariyel qızı Pənahlı**

**Dil. Mədəniyyət. İnsan. Etnos**

**Xülasə**

Dilçilikdə paradiqmlərin dəyişkənliyi problemi xüsusi əhəmiyyətə malikdir. Dilin antropoloji baxımdan tədqiqi müasir dövrdə bütün alimlər tərəfindən qəbul olunmuşdur. Bu elmi paradiqm dilçilikdə yeni problemlərin, dil vahidlərinin təhlilində yeni yanaşmaların, yeni təsvir metodlarının yaranmasına səbəb olmuşdur. Dil – xalqın fəaliyyətinin nəticəsidir. Dil dövlət və dil normalarını formalaşdıran institutlar tərəfindən müəyyən çərçivədə təqdim olunur. Dil – mədəniyyətin məhsuludur. İnsanların şüurunda mövcud olan qanunlar onların mənəvi mahiyyətini, dəyər iyerarxiyasını və davranış motivlərini müəyyənləşdirir. Dil faktlara və hadisələrə əsaslanmağa başladı, dövlət mərkəzində isə dil daşıyıcısının şəxsiyyəti yer tutdu.

Bəşər mədəniyyəti etnik mədəniyyətin məcmusunu təşkil edir. Mədəniyyət ictimai-sosial təfəkkürün fundamental anlayışlarından biridir.

**Сура Тариел кызы Панахлы**

**Язык. Культура. Человек. Этнос**

**Резюме**

Язык теснейшим образом связан с культурой он прорастает в нее, развивается в ней и выражает ее. Язык – многомерное явление, возникшее в человеческом обществе: он и система и антисистема и деятельности и продукт

этом деятельности, и дух и материя, и стихийно развивающийся объект и упорядоченное саморегулирующее явление, он и произволен и произведен.

С позиций антропоцентрической парадигмы, человек познает мир через осознание себя, своей теоретической и предметной деятельности в нем. Осознание себя мерой всех вещей придает человеку право творить в своем сознании антропоцентрическим порядок вещей, исследовать который можно не на бытовом, а на научном уровне. Этот порядок, существующий в голове, в сознании человек, определяет его духовную сущность, мотивы его поступков, иерархию ценностей.

**Sura Tariyel gizi Panahli**

**Language. Culture. Man. Ethnosıs**

**Summary**

The problem of change of paradigms is of special importance in linguistics. The study of language from an anthropological point of view has been accepted by all scientists in modern times.This scientific paradigm has led to the emergence of new problems in linguistics, new approaches to the analysis of language units, and new description methods. Language is the result of people's activity. The language is presented in a certain framework by the state and institutions that form language norms. Language is a product of culture.The laws existing in people's minds determine their moral essence, value hierarchy and behavioral motives. Language began to be based on facts and events, and the identity of the speaker took place at the center of the state.

Human culture is the totality of ethnic culture. Culture is one of the fundamental concepts of social thinking.

**Rəyçi: f.e.d. Əliyeva Z.**